# Milli Qurtuluş Günü münasibətilə silsilə tədbirlər keçirilib



Milli Kitabxanada "Heydər Əliyev: dövlət suverenliyi və konstitusiya quruluşu" mövzusunda elmi konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkilatçılığı ilə gerçəkləşən tədbir 15 İyun - Milli Qurtuluş Gününə həsr olunub.

Dövlət himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib. Ulu Öndərə həsr olunmuş film nümayiş etdirilib.

Konfransı açan Milli Kitabxananın direktoru professor Kərim Tahirov kitabxananın 1995-ci ildə yaradılan bu zalına 30 il öncə ilk dəfə Ulu Öndər Heydər Əliyevin gəldiyini bildirib. O, dahi siyasətçinin kitabxananı xalq, millət və cəmiyyət üçün müqəddəs bir yer, bilik, zəka, mənəviyyat mənbəyi kimi səciyyələndirdiyini diqqətə çatdırıb.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli konfransda "Ulu Öndər Heydər Əliyev: Konstitusiya və dövlət suverenliyi" mövzusunda çıxış edib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu Ulu Öndər Heydər Əliyevin mədəniyyətə xüsusi yanaşması olduğunu söyləyib. Deyib ki, ölkəmizdə siyasi hakimiyyətə qayıdan Ümummilli Lider zəngin dövlətçilik təcrübəsi və qətiyyəti ilə Azərbaycanı qısa müddətdə çətinlikdən qurtarıb, davamlı inkişaf yoluna çıxarıb.

Sonra Azərbaycanda Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov, Milli Məclisin deputatları Hikmət Babaoğlu, Aydın Mirzəzadə, Vüqar Rəhimzadə, YAP Səbail Rayon Təşkilatının sədri Muxtar Nağıyev, Mətbuat Şurasının sədri Rəşad Məcid və Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı Zaur Əliyevin çıxışları dinlənilib.




* * *

Dövlət Sərhəd Xidmətinin Aparatında, struktur qurumlarında və hərbi hissələrində 15 İyun - Milli Qurtuluş Günü münasibətilə silsilə tədbirlər keçirilib.

DSX-dən bildirilib ki, Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və vətən uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Qeyd olunub ki, 1993-cü ilin iyununda xalqın təkidi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev Azərbaycanı parçalanmadan, vətəndaş qarşıdurmasından xilas edərək dövlətçiliyimizin əsasını möhkəmləndirib, ordu quruculuğu və təhlükəsizlik sahəsində mühüm islahatlara imza atıb.

Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasının və onun siyasi kursunun Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən daxili və xarici siyasət nəticəsində ölkəmizin regionun lider dövlətinə çevrildiyi, torpaqlarımızın işğaldan azad edilməsi ilə suverenliyimizin tam bərpa olunduğu tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Daha sonra Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin Milli Qurtuluş Günü ilə əlaqədar təbrik telefonoqramı şəxsi heyətə çatdırılıb. Təbrik telefonoqramında Milli Qurtuluş Gününün müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında və ölkədə sabitliyin, inkişafın təmin olunmasında tarixi dönüş nöqtəsi olduğu bildirilib.

Tədbirlərin sonunda "Qurtuluşa doğru" sənədli filmi nümayiş etdirilib.

Azərbaycan.- 2025.- 15 iyun (№ 122).- S.8.